# TƏRTƏR: Prezident İlham Əliyevin cəbhə bölgəsinə səfəri mövcud imkan və səyləri hərəkətə gətirmişdir

*Tərtər rayonunda işlər düzgün qurulub. Mən rayonda dəfələrlə olmuşam. Xüsusilə son vaxtlar burada gedən quruculuq-abadlıq işləri məni çox sevindirir. Əminəm ki, sizi də sevindirir. Keçən dəfə biz may ayında görüşmüşdük. O vaxt mən dağılmış evlərə baş çəkdim və bir daha əmin oldum ki, Tərtər sakinləri qəhrəmandırlar. Onlar burada, döyüş bölgəsində, düşmənlə üz-üzə möhkəm dayanıblar və atılan, evlərinə dəyən mərmilər onların iradəsinə zərrə qədər təsir etməmişdir.*

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

***Xəbər verildiyi kimi, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev dekabrın 3-də 47 kilometr məsafədə düşmənlə üz-üzə dayanan cəbhə bölgəsi Tərtərdə olmuşdur. Səfərin əvvəlində ölkə rəhbəri İlham Əliyev və xanımı Mehriban Əliyeva ümummilli lider Heydər Əliyevin rayon mərkəzində ucaldılmış abidəsini ziyarət edərək, heykəlin önünə gül dəstələri qoymuşlar.***



Sonra dövlət başçısı və xanımı Tərtər şəhərinin yenidən qurulmuş içməli su təchizatı və kanalizasiya sistemlərinin istifadəyə verilməsi mərasimində iştirak etmiş, bu önəmli layihənin başa çatdırılması münasibətilə tərtərliləri təbrik etmişdir. Ali qonaqlar Tərtərçay



üzərində tikilmiş körpünün, Şahmat Məktəbinin, Yeni Azərbaycan Partiyası rayon təşkilatının inzibati binasının, 100 yerlik körpələr evi-uşaq bağçasının açılışlarında da iştirak etmiş, rayon sakinlərinin sevincinə xüsusi təntənə gətirmişlər. "N" saylı hərbi hissədə olandan, Aprel döyüşlərində ermənilərin atəşləri nəticəsində ziyan dəymiş evlərdə aparılan təmir-bərpa işləri ilə tanışlıqdan sonra Prezident İlham Əliyev rayon ictimaiyyətinin nümayəndələri ilə görüşmüş və çıxış etmişdir.

Ölkə rəhbərinin cəbhəyanı bölgəyə tarixi səfərinin yekunları və qarşıda duran yeni vəzifələrin müzakirəsi ilə bağlı keçirilən ümumrayon toplantısında, eləcə də ağsaqqallarla, ziyalılarla, gənclərlə apardığımız söhbətlərdə belə bir yekdil fikir ifadə edildi ki, Prezidentin indiki gəlişi ilə Tərtər rayonunun tarixində yeni bir səhifə açılmışdır. İndi yaşından, məşğuliyyətindən, siyasi əqidəsindən asılı olmayaraq hamı bu tarixi səfərin, keçirilən görüş və söhbətlərin unudulmaz təsiri altındadır.

Vurğulandı ki, Prezident İlham Əliyev son illərdə rayonda görülüb başa çatdırılmış işlərə, həyata keçirilən tədbirlərə yüksək qiymət verməklə bərabər, qarşıda duran yeni hədəflərdən də danışmış, məsləhət və tövsiyələr vermiş, daimi dəstəyini bir az da artırmışdır. Bu isə tərtərlilərin qurub-yaratmaq əzmini birə-beş yüksətmiş, bütün imkan və səyləri hərəkətə gətirmiş, insanların sabaha olan inam və ümidlərini daha da qüvvətləndirmişdir.

Bunu son günlər Tərtər Rayon İcra Hakimiyyətinə ayrı-ayrı idarə, müəssisə və təşkilatlardan, iş adamlarından, sıravi sakinlərdən daxil olan yeni təşəbbüslər də sübut edir. Həmin təklif və müraciətlərlə tanışlıq bir daha göstərir ki, tərtərlilər ölkə Prezidentinin apardığı müdrik və uzaqgörən daxili və xarici siyasət xəttini ürəkdən



bəyənir və müdafiə edirlər. Onlar ölkəmizin daha da inkişafı və çiçəklənməsi üçün bundan sonra da var qüvvələrini sərf etməyə hazırdırlar.

Yeri gəlmişkən, kənd təsərrüfatı rayonu olan Tərtərin son vaxtlar qarşıya qoyduğu əsas hədəfləri yada salaq. Bu il rayon üzrə 1035 hektar sahədə pambıq əkilmişdir. Bu, əvvəlki illə müqayisədə 88,2 faiz çox olsa da, son hədd hesab olunmur. Ona görə də fermerlər, sahibkarlar, pambıqçılıqla məşğul olan kənd adamları qərara alıblar ki, 2017-ci ildə əkin sahələrini 3 min hektara çatdırsınlar. Bundan başqa, 2 min hektarda şəkər çuğunduru əkilməsi, 3 ton barama istehsal olunması nəzərdə tutulur. Artıq bu məqsədlə 120 min çəkil tinginin əkininə başlanmışdır. Uzun illərdən istifadə olunmayan 300 hektar sahədə xurma, zeytun, badam və nar bağları salınacaq. Bu il dövlət fondu torpaqlarından 2279 hektar istifadə olunmayan və ya təyinatı üzrə əkilməyən sahə geri qaytarılmış və orada da kənd təsərrüfatı məhsulları əkilib-becəriləcək.

Sosial sferada, tikinti-quruculuq, abadlıq, təhsil, səhiyyə və mədəniyyət sahəsində də gərəkli



addımlar atılır, genişmiqyaslı əməli işlər görülür. İndi nəzərdə tutulmuş yeni tədbirlər kompleksi bir daha dəqiqləşdirilir, imkan və ehtiyat mənbələri araşdırılır, işin daha yaxşı təşkili üçün müvafiq yollar müəyyənləşdirilir.

Rayonda ötən illərdə görülmüş işlərin, əldə edilən ciddi irəliləyişin miqyas və önəminə yüksək qiymət verən Prezident İlham Əliyev demişdir: "Tərtər rayonunun uğurlu inkişafı məni çox sevindirir. Şəhərin abadlaşması, şəhərdə və rayonda infrastrkutur layihələrinin icrası göstərir ki, Azərbaycanın bütün bölgələri uğurla inkişaf edir və bizim vaxtilə qəbul etdiyimiz regionların sosial-iqtisadi inkişafı proqrammı həyatda öz əksini tapır. Biz son illər ərzində bunun Tərtər rayonunun timsalında görürük. Tərtər şəhəri abadlaşıb, gözəlləşib.

Mən 10 il bundan əvvəl Prezident kimi birinci dəfə Tərtər rayonunda olmuşam, bu yerdə vətəndaşlarla görüşmüşəm. O vaxt Tərtərin siması tam başqa idi. Bu gün Tərtər müasir, abad şəhərdir, rayon inkişaf edir, vətəndaşlar daha da yaxşı yaşayırlar. Magistral yolların, kənd yollarının çəkilişi, qazlaşdırılma ilə bağlı böyük infrastruktur layihələri icra edilir. Tərtər rayonunda qazlaşdırma 90 faizdən çoxdur, 100 faizə çatmalıdır. Elektrik enerjisi ilə bağlı heç bir problem yoxdur. Bu gün içməli su məsələsi də öz həllini tapır".

Deməli, son illər Tərtərin iqtisadi, sosial və mədəni inkişafında, mühüm infrastruktur layihələrinin həyata keçirilməsində yüksəliş dövrü olmuşdur. Bu isə insanların daha rahat və təminatlı yaşamasına, həyat şəraitinin yüksəlməsinə səbəb olmuşdur. Bunu görüşdüyümüz, söhbət etdiyimiz tərtərlilərin ürək sözləri, arzu və düşüncələri bir daha sübut edir.

**Qədir Allahverdiyev, Tərtər Rayon Ağsaqqallar Şurasının sədri:**

– Mən özümü, haqlı olaraq, xoşbəxt adam hesab edirəm. Ona görə ki, ötən əsrin 70--80-ci illərində ulu öndər Heydər Əliyevi Tərtərdə qarşılayanlar arasında mən də olumuşdum. İndi isə o böyük şəxsiyyətin arzu və əməllərini uğurla davam etdirən Prezident İlham Əliyevi qarşılayanların biri də mən idim. Bu, əlbəttə, böyük xoşbəxtlikdir. Biz insanların, hər şeydən əvvəl, qayğıya, diqqətə ehtiyacı var. Əgər xatırlayırsınızsa, ulu öndərimiz bütün fəaliyyəti boyu məhz bu məsələləri diqqətdə saxlayırdı. Ölkə Prezidenti İlham Əliyev də insan amilini, vacib sosial məsələlərin gecikmədən həllini ön plana çəkir.

Açılan iş yerləri, yeni müəssisələr, çəkilən yollar, salınan parklar, xiyabanlar, tikilən evlər biz insanların daha rahat, firavan yaşamasına xidmət edir. Elə bizim rayonu götürək. Açığını desək, cəmi 10 il bundan qabaq Tərtər respublikanın bərbad hala düşmüş bölgələrindən idi. Qaz, su, elektrik enerjisi böyük fasilələrlə verilirdi. Şəhərdə istirahət guşələri, abad bir park, gözəgəlimli bir xiyaban yox idi. Yeni binalar tikilmirdi, yollarımız, körpülərimiz sökülüb-dağılırdı.

Bəs indi? Bəli, indi Tərtər ölkəmizin ən abad, yaraşıqlı şəhərlərindən birinə çevrilmişdir. Minlərlə yeni iş yeri açılmışdır. Bütün bunlar isə, əlbəttə, ilk növbədə, ölkə başçısı İlham Əliyevin başqa bölgələr kimi, Tərtərə də göstərdiyi gündəlik diqqət və qayğının bilavasitə nəticəsidir. Ona görə də biz tərtərlilər Prezidentimizə dərin minnətdarlığımızı bildirir, ölkəmizin tərəqqisi naminə misilsiz fəaliyyətində ona uğurlar arzulayırıq.

**Fitat Əliyeva, Qapanlı kənd məktəbinin direktoru:**

– Ölkə Prezidenti ilə bərabər, onun xanımı Mehriban Əliyevanın rayonumuza növbəti səfəri bizi



xüsusilə duyğulandırdı. Əvvəla, Tərtər cəbhə bölgəsidir. İkinci tərəfdən, rayonumuzda son illər tikilib- istifadəyə verilən məktəb və uşaq bağçalarının, demək olar ki, hamısı Heydər Əliyev Fondunun tərtərlilərə hədiyyəsidir. Biz rayon qadınları Mehriban xanımın bu istiqamətdə gördüyü işləri, təhsilimizlə, mədəniyyətimizlə bağlı həyata keçirdiyi layihələri yüksək qiymətləndiririk, ona hədsiz təşəkkrümüzü bildiririk.

Bilirsiniz ki, Qapanlı cəbhə xəttinə ən yaxın olan yaşayış məntəqəsidir. Erməni quldurları hər gün atəşkəs rejimini pozur, əkin-biçin işlərinə mane olur, görülən işlər çox çətinliklə başa gəlir. Bu kənddə, demək olar ki, güllə yeri olmayan ev yoxdur. Buna baxmayaraq, bir nəfər də olsun kənd sakini başqa yerə köçməyib. Bir gün də olsun məktəbin fəaliyyəti dayanmayıb.

Birinci növbədə ona görə ki, biz öz Ali baş komandanımıza, qəhrəman ordumuza inanırıq. İkinci tərəfdən, kənddə bütün sosial məsələlər həll edilib. Rayon rəhbərləri, əlaqədar təşkilatların nümayəndələri vaxtaşırı bizə baş çəkir, gündəlik işmizlə maraqlanır, lazımı köməklik göstərirlər. Bütün bunlar, əlbəttə, heç də öz-özünə yaranmamışdır. Ölkə Prezidenti İlham Əliyevin diqqət və qayğısı, cəbhə bölgəsi kimi Tərtərə ardıcıl səfərləri bizə əlavə güc və qüvvət verir, inam və ümidimizi daha da artırır.

**Habil İbrahimov, sahibkar:**

– Mən ölkə başçısının Tərtərdə olarkən dediyi aşağıdakı sözləri yada salmaq istəyirəm: "Baramaçılıq, pambıqçılıq inkişaf edir. Gələn il 3 min hektarda pambıq əkiləcək, minlərlə insan bu işlərə cəlb olunacaq. Baramaçılığın da həm dövlətə, həm də insanlara çox böyük xeyri var. Yəni, qısa müddətdə 30-40 gün ərzində insanlar yaxşı pul qazanırlar. Xüsusilə, nəzərə alınmalıdır ki, dövlət bu sahəyə öz dəstəyini əsirgəmir. İndi xaricdən tinglər gətirilir, təsərrüfatlara verilir".

Biz fermerlər, sahibkarlar, kənd adamları üçün bundan böyük diqqət, qayğı nə ola bilər? Deməli, indi, necə deyərlər, söz bizimdir. Ölkə Prezidentinin rayonumuza səfərindən sonra kollektivimizdə geniş müzakirə apardıq, gələn il üçün işlərimizi bir daha götür-qoy etdik. Ümumi qərarımız belə oldu ki, əkin sahələrini, ən azı, iki dəfə artıraq. Həm məhsul bolluğuna öz töhfəmizi vermiş olarıq, həm də gəlirimiz artar. Mən rayonumuzun kənd əkinçiləri, fermerləri, sahibkarları adından bizə göstərdiyi diqqət, yaradılan şəraitə görə ölkə Prezidenti İlham Əliyevə təşəkkür və minnətdarlığımızı bəyan edir, bundan sonra da ölkəmizdə məhsul bolluğu yaratmaq üçün bütün qüvvə və səylərimizi sərf edəcəyimizi bildiririk.

Tərtərlilərin söylədiklərindən də aydın göründüyü kimi, bu gün rayonda sağlam mənəvi-psixoloji mühit hökm sürür. İnsanların arzu və düşüncələri dinc quruculuq işlərinə, uğurları artırmaqla güzəranı daha da yaxşılaşdırmağa yönəlmişdir. Prezident İlham Əliyevin rayona növbəti səfəri bütün sahələrdə canlanmaya və yüksəlişə səbəb olmuş, yeni hədəflər müəyyənləşdirmişdir.

Tərtər işıqlı yol üstədir, yeni yüksəlişə qanad açmışdır.

***Ziyəddin SULTANOV,***
***"Xalq qəzeti"nin bölgə müxbiri***